# AZƏRBAYCAN İQTİSADİYYATININ STRATEJİ YOL XƏRİTƏSİ VƏ İNKİŞAF

***Vahid Novruzov***
*Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, i.e.d., professor*
*AZ 1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi 14*
*e-poçt: www.audit.gov.az*

**Açar sözlər:** şəffaflıq, rəqabətqabiliyyətlilik, klasterləşmə, investisiyalar, nəzarət, hesabatlıq, yol xəritəsi.
**Ключевые слова:** прозрачность, конкурентоспособность, кластеризация, инвестиции, контроль, отчетность, дорожная карта.
**Keywords:** transparency, competitiveness, clustering, investments, control, reporting, road map.

Son illərdə dünyada baş verən siyasi kataklizmaların, geniş yayılmaqda olan ikili standartların, bəzi qüvvələr tərəfindən dünya hökmranlığına artan iştahanın, tarixi gerçəkliyə bilərəkdən etinasızlığın, harada gəldi "at oynatmaq" hüququnu özəlləşdirmək istəyinin ucbatından qaynaqlanan süni iqtisadi-maliyyə şüvəni (böhranı) bütün ölkələrdə, o cümlədən bunu törədən regionlarda da özünü büruzə verməkdədir.

Uzun müddət dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olan ölkəmizdə uğurlu tərəqqiyə zəmin yaratmış cəsarətli iqtisadi islahatlar və müharibə şəraitində olmasına baxmayaraq, müsbət sosial, siyasi və ictimai çalarlarla müşahidə olunan iqtisadi sıçrayışa gətirib çıxaran Azərbaycanın iqtisadi inkişaf modelinin müasir tələblər baxımından modernləşdirilməsi problemi aktuallaşmışdır.

Məhz bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2016-cı il 16 mart tarixində imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Sərəncam çox mühüm əhəmiyyət kəsb edir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və uğurla həyata keçirilmiş iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədi ilə imzalanmış Sərəncamda prioritet hesab edilən əsas istiqamətlər də təsbit olunmuşdur ki, bunların da sırasına ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə etmək zərurətini aid etmək olar.

Ölkə Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə yaradılmış İşçi qrupu tərəfindən milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələri vaxtında hazırlanmış, müzakirəyə çıxarılmış və maraqlı tərəflərin rəy və təklifləri nəzərə alındıqdan sonra Azərbaycan Prezidentinin 2016-cı il 06 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə həyata vəsiqə qazanmışdır. Azərbaycan iqtisadiyyatı və cəmiyyəti üçün tarixi əhəmiyyət kəsb edən bu mühüm sənədlər toplusunda nəzərdə tutulmuş müasir və kompleks xarakter daşıyan, mütərəqqi və qabaqcıl dünya təcrübəsindən bəhrələnən tədbirlərin ölkəmizdə iqtisadiyyatın yeni sürətli dövrə qədəm qoyması üçün dayanıqlı bir platforma rolunu oynayacağına ümid ifadə etməklə yanaşı, yol xəritəsi və əsasən də onun şəffaflığa dair çalarları barədə aşağıdakıları bildirmək zəruridir.

Dünyada baş verən arzuolunmaz siyasi, iqtisadi və sosial proseslərə baxmayaraq, son iki onillik ərzində yüksək sürətlə inkişafa zəmin yaratmış Azərbaycanın uğurlu iqtisadi inkişaf modeli sayəsində uzun müddət ölkəmizdə, digər dövlətlərdən fərqli olaraq iqtisadi fəallıq davam etmiş olsa da, yeni iqtisadi situasiya özünü büruzə vermişdir.

Bir çox obyektiv və subyektiv səbəblər üzündən ölkə iqtisadiyyatının bəzi sahələrində mürəkkəb vəziyyət yaranmış və yalnız Azərbaycan Prezidenti İlham Əliyevin çevik və eyni zamanda yaxın və uzaq gələcəyə hədəflənmiş iqtisadi strategiyası sayəsində böhran həddinə yetişməyən iqtisadi durum bərqərar olmuşdur. Ölkədən kapital axınının cilovlanması, mal və xidmət istehsalçılarına yerli və xarici bazarlara çıxışın təmin olunması, bütün növ investisiyaların cəlbinə münbit şərait yaradılması və onların prioritet layihələrinin reallaşdırılmasına və məsələlərin həllinə yönəldilməsi, müasir tələblərə cavab verən kadrların hazırlanması, idarəetmənin və planlaşdırmanın təkmilləşdirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər müasir dövr üçün ölkə başçısının iqtisadi siyasətinin yalnız bir hissəsini təşkil edir.

Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, yeni iqtisadi şərait ölkənin milli və o cümlədən iqtisadi təhlükəsizliyini yüksəltməyi, mövcud imkanlardan səmərəli istifadəni zəruriləşdirməklə bərabər, iqtisadi möhtəkirliyi dəf etməyi, iqtisadiyyatın şaxələndirilməsini, maliyyə sabitliyi üçün yaranmış risk amilinin zəiflədilməsini, mülkiyyətçilərin hüquqlarının qorunmasının və korporativ idarəetmənin gücləndirilməsini, investisiya qoyuluşlarında dövlətin payının və istiqamətinin optimallaşdırılmasını, ixrac potensialının və onun təşviqinin artırılmasını, biznes (sahibkarlıq)-investisiya mühitinin yaxşılaşdırmasını, sağlam rəqabətin və ölkə daxilində kooperasiyanın genişləndirilməsini daha da aktuallaşdırmışdır. Bütün bunlar isə “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə göstərildiyi kimi, yeni dövrün ən mühüm strateji çağırışı “kapital akkumulyasiyası” əsaslı modeldən “məhsuldarlıq (effektivlik)” əsaslı artım modelinə keçidin təmin edilməsini özündə ehtiva edir.

Azərbaycan iqtisadiyyatının yeni iqtisadi modelinin əsas parametrləri və onları üzə çıxaran amillər Yol Xəritəsində öz konkret şərhini tapmışdır. Əsas məqsəd əldə olunmuş nailiyyətlərin qorunması və həyata keçirilən islahatların dayanıqlılığının bundan sonra da təmin olunmasıdır.

Xarici ədəbiyyatlarda beynəlxalq münasibətlər, iqtisadiyyat və menecment sahələrində geniş istifadə edilən “Yol Xəritəsi” (Road map) termini həm “hərəkət etmək, plan” mənasında, həm də gələcək dövr, perspektiv üçün planlar, inkişaf ssenarisinin əyani təsviri anlamında işlədilir.

Elmi-iqtisadi ədəbiyyatlarda “Yol Xəritəsi” termini dedikdə müəyyən bir obyektin (texnologiyanın, biznesin, şirkətin, sahənin və s.) inkişafının ardıcıl ssenarisi başa düşülür.

Yol xəritələrinin formalaşdırılması prosesini özündə ehtiva edən yol xəritələnməsi ekspert informasiyalarına əsaslanmaqla bu obyektlərin inkişafının proqnozlarının müxtəlif variantlarının hazırlanmasını (müəyyənləşdirilməsini) həyata keçirir.

Bir çox ölkələrdə yol xəritələnməsi özündə müxtəlif növ geniş analitik metodikalarını cəmləşdirməklə iqtisadiyyatın planlaşdırılmasının, proqnozlaşdırılmasının və idarə edilməsinin ən səmərəli metodlarından biri kimi dəyərləndirilir.

Ənənəvi yanaşmalardan fərqli olaraq, Yol Xəritələri nəyin hesabına olursa olsun, iqtisadi inkişafı təmin etməyi deyil, iqtisadi səmərəlilik nöqteyi-nəzərindən optimal hesab edilə bilən variantların inkişaf ssenarilərinin ehtimal olunan çoxluğundan seçimi aparmaq üçün çox vacibdir. Özü də bu zaman cari və resurs yüklü nəticələr yox, strateji hədəflər əsas götürülür.

Başqa sözlə, Yol Xəritələri məqsədli proqramlardan fərqli olaraq, müvafiq obyektin inkişafını vaxt baxımından xarakterizə etməklə yanaşı, əldə ediləcək konkret səmərəlilik və nəticələrin, göstəricilərin əldə olunacağını nəzərdə tutur.

Ümumiyyətlə, Yol Xəritələrinin sahəvi, elmi-texnoloji, məhsullar, strateji və proqram, korporativ və s. kimi növləri geniş yayılmışdır.

İlk texnoloji Yol Xəritəsi hələ 1970-ci ildə (Technology Road map) Motorola və Corning şirkətləri tərəfindən işlənib hazırlanmış və həmin şirkətlərin inkişafında çox böyük rol oynamışdır.

Ümumiyyətlə, o dövrdə "Yol Xəritəsi" prinsipinin tətbiqi ABŞ korporasiyalarının idarə edilməsində geniş yayılmağa başlamışdır. Məhz həmin dövrdə Amerika iqtisadiyyatı özünün ağır günlərini yaşayırdı, yüksək inflyasiya, işgüzar durğunluq, getdikcə çoxalan işsizlik hökm sürürdü. Dövlət xərclərinin artırılması, əməkhaqlarının tənzimlənməsi, inflyasiyanı cilovlamaq məqsədi ilə tətbiq edilən fiksə olunmuş qiymətlərin də nəzərəçarpacaq faydası olmamışdır. Belə bir situasiyada gələcəyə yeni bir baxış, sərt tənzimlənmənin mülayimləşdirilməsi, proqnozlaşdırmaya qeyri-səhih yanaşma, qabaqcıl texnologiyanın tətbiqinin stimullaşdırılması, qısa və uzunmüddətli problemlərin, strateji və operativ məsələlərin uzlaşdırılması zərurəti "Yol Xəritəsi" anlayışının ortaya çıxmasını aktuallaşdırmışdır. "Yol Xəritə"lərinin işlənib hazırlanması, reallaşdırılması və buna fasiləsiz nəzarət və izləmə iqtisadi inkişafın innovativ, texnoloji, habelə sosial, demoqrafik və ekoloji amilləri nəzərə alan səhih trayektoriyasını müəyyənləşdirməyə imkan yaradır.

Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsinin üstünlüklərindən danışarkən, ilk növbədə, mövcud və gələcəyə hesablanmış imkanların səfərbər edilməsi, monetar və fiskal siyasətin uzlaşdırılması, investisiyaların və risklərin idarə edilməsinin optimallaşdırılması, müxtəlif dövrlər üçün nəzərdə tutulmuş cari və strateji məqsəd və proseslərin düzgün müəyyənləşdirilməsi, proqressiv texnologiya və məhsulların inkişaf etdirilməsi, maliyyə və marketinq proseslərinin optimallaşdırılması və bir sıra başqa əlamətləri göstərmək olar.

Sənədin özündə də fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbulu strateji hədəflərdən biri kimi dəyərləndirilmişdir.

Yol Xəritəsinin mühüm məziyyətlərindən biri də budur ki, strateji hədəfləri konkret məqsəd və vəzifələri sıralamaqla onların icrasını işlək nəzarət mexanizmi ilə tamamlayır. Müəyyən qeyri-müəyyənlik şəraitini də mümkün hal kimi qəbul edən Yol Xəritəsinin metodologiyası iqtisadi proseslərin səmərəli axınına və gələcək investisiyaların uğurluluğuna zəmin yarada biləcək analitik sxemlərin tətbiqini təşviq edir.

Azərbaycan iqtisadiyyatının Yol Xəritəsində diqqət çəkən əsas məqamlardan biri də məqsədlərin balanslaşması, qısa, orta və uzaq gələcək müddətlər üçün nəzərdə tutulmuş və üzvü surətdə bir-biri ilə səbəb-nəticə əlaqəli məqsədlər xəritəsinin işlənib hazırlanmasıdır. Bu keyfiyyət özünü strateji və sahəvi məqsədlərin sintezində də büruzə verməkdədir. Bütün göstərilənlər "bazara istiqamətlənmə" (market-based) və "ehtiyatlara istiqamətlənmə" (resource-based) yanaşmalarını yüksək dəqiqliklə uzlaşdırmaqla məqsəd və vəzifələrin prioritet qiymətləndirmə şəraitində müəyyənləşdirilmişdir.

Azərbaycanın iqtisadi Yol Xəritəsinin məziyyətlərindən biri də onun bir sıra ölkə yanaşmalarında rast gəlinən birtərəfli (ya aşağı, ya da yuxarı səviyyədən başlama) variantdan kompleks variantın əsas götürülməsidir. Belə ki, bu sənəd makroiqtisadi islahatlar və institusional dəyişikliklər istiqaməti ilə müəssisə (şirkətlər) səviyyəsində iqtisadiyyatın yeni biznes-rəqabət modelinin tətbiqi istiqamətini eyni zaman müstəvisində reallaşdırmanı labüd sayan işlək üstünlüyə malikdir. Bununla yanaşı, pilot layihələrin yayılmasını məqsədəuyğun

sayan Yol Xəritəsi sənaye, kənd təsərrüfatı, sosial sfera və iqtisadiyyatın digər sahələrinin inkişafı üçün belə layihələrdən bəhrələnməyi aktual hesab edir.

Məhz belə pilot layihələrin yaradılması və yayılması konkret investisiya layihələrinin həyata keçirilməsinə operativ başlanılmasına, dövlətin və investorların qarşılıqlı əlaqələrinin mümkünlüyünün təsdiqlənməsinə, iqtisadiyyatın problemli nöqtələrinin çevik müəyyənləşdirilməsinə, islahat risklərinin azaldılmasına imkan verəcəkdir ki, bunlar da, öz növbəsində, islahatlara ictimai etimadın yüksəldilməsi və əhali tərəfindən geniş dəstəklənməsi üçün xüsusi əhəmiyyət kəsb edir.

Xarici təcrübədə Yol Xərtəsinin məqsəd və hədəflərindən danışarkən ÜDM-in getdikcə yüksələn templə artması, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gücləndirilməsi, “bilik iqtisadiyyatının” xüsusi çəkisinin çoxalması, elm, təhsil, səhiyyə və sosial təminat sahələrinə xərclərin artırılması, digər tərəfdən isə iqtisadi təhlükəsizliyin gücləndirilməsi, yığım normalarının gələcək nəsillərə qayğı nöqteyi-nəzərindən optimallaşdırılması məsələləri nəzərdə tutulur.

Təbii ki, bütün bu məqsəd və hədəflərə nail olunması zəruri layihələri özündə ehtiva edən düzgün investisiya siyasətinin mövcudluğunu və reallaşdırılmasını zəruri edir.

Ölkəmizin Strateji Yol Xəritəsində məqsəd və hədəflər, fikrimizcə, həm düzgün müəyyənləşdirilmiş, həm də mövcud vəziyyəti və gələcəyə səmtlənmiş inkişaf strategiyası trayektoriyasına müvafiq investisiya siyasəti və kompleks tədbirlər sistemi ilə reallaşdırılacağı nəzərdə tutulmuşdur.

Məsələn, əgər Yol Xəritəsində milli iqtisadiyyat üzrə 2020-ci ilədək strateji baxış xarici şokların mənfi təsiri nəticəsində yaranmış vəziyyətdən çıxmaq üçün qısa müddətdə iqtisadiyyatın sabitləşdirilməsi, ortamüddətli dönəmdə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xəttinin bərpa edilməsi, dövrün sonunda isə dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə rəqabətqabiliyyətliliyinin artırılması kimi məqsədləri qarşıya qoyursa, digər tərəfdən də inkişafın davamlılığının artırılması üçün nəzərdə tutulmuş strateji baxışların gerçəkləşməsi üçün qeyri-neft sektorunda daha çox dəyərin yaradılması əsasında gəlirlərin artırılması və ədalətli bölgünün aparılması, yeni iş yerlərinin yaradılması, təbii ehtiyatlardan daha səmərəli istifadə edilməsi, iqtisadiyyatın neftdən asılılığının azaldılması, milli valyutaya etimadın artırılması kimi mühüm tədbirlərin zəruriliyi təsbit olunmuşdur.

Yuxarıda göstərilən və 2020-2025-ci illər üçün reallaşdırılması Yol Xəritəsində əks olunan tədbirlər kompleksi azad rəqabət mühitini inkişaf etdirməklə və daha çox dəyər yaratmaqla ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin gücləndirilməsini əsas baxış kimi ortaya qoyur. Biznes mühitinin daha da yaxşılaşdırılması, özəl investisiya mənbələrinin geniş cəlb edilməsi, dövlətin dəstəkləyici rolunun təkmilləşdirilməsi kimi tədbirlər də zəruri hesab edilmişdir.

2025-ci ildən sonrakı dövr üçün əvvəlki iki dövrün məntiqi davamı və daha güclü iqtisadi stimul və hərəkətverici amillərin fəallaşdırılması və səfərbər edilməsinə söykənən yüksək texnoloji inikişafa optimal iqtisadi struktura hədəflənmiş tədbirlərin reallaşdırılmasının aktuallığı əsaslandırılmışdır.

Yol Xəritəsində zəruri hesab edilən manatın kursunun stabilləşdirilməsi, kapital axınının qarşısının alınması, iqtisadiyyatın dollarsızlaşdırılması, valyuta bazarında möhtəkirliyin dayandırılması, valyuta nəzarətinin gücləndirilməsi, qiymətlərin stabilləşdirilməsi, inflyasiyanın cilovlanması, mənzil-kommunal sferasında mütərəqqi təcrübələrin tətbiqi kimi istiqamətlər də mühüm əhəmiyyət kəsb edir. Maliyyə xidməti istehlakçılarının hüquqlarının müdafiəsi və onların maliyyə savadlılığının yüksəldilməsi, qiymətli kağızlar bazarının inkişaf etdirilməsi,

müvafiq qurumlar arasında koordinasiyanın yaxşılaşdırılması, müasir maliyyə infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq və xarici maliyyə qurumları ilə əlaqələrin təkmilləşdirilməsi, maliyyə bazarı iştirakçıları arasında rəqabətin inkişafı, bank və digər maliyyə xidmətlərinin keyfiyyətinin və çeşidinin yüksəldilməsi, maliyyə-bank sistemində pul bazarının daha da inkişaf etdirilməsi, nağdsız hesablaşmalar sisteminin geniş yayılması, kiçik biznesə və əhaliyə maliyyə xidmətinin inkişaf etdirilməsi və digər aspektlər də Yol Xəritəsinin mühüm obyektləri sırasındadırlar.

Xüsusi vurğulanmalıdır ki, pul siyasəti ilə qiymət stabilliyi arasında üzvi vəhdətin mövcudluğu və sosial-iqtisadi inkişafda oynamalı olduğu rol və təsir mexanizmləri Yol Xəritəsində əsas məqsədə aparan yollardan biri kimi dəyərləndirilir.

Dünyada uğurlu hesab edilən Yol Xəritələrində rəqabətlə bərabər kooperasiyanın inkişaf etdirilməsi, onun müxtəlif forma və metodlarının təşkili və tətbiqi, bu işdə dövlət dəstəyinin gücləndirilməsi, biznesin təşkilində ərazi və sahələrarası kooperasiyanın mütərəqqi alətlərindən hesab edilən klasterlərdən istifadə iqtisadi tərəqqidə mühüm amil kimi dəyərləndirilir, həmçinin öz bəhrəsini və səmərəliliyini göstərməkdədir.

ABŞ-da müəssisələrin yarıdan çoxu klasterlər çərçivəsində fəaliyyət göstərirlər və onların payı ÜDM-də 60%-dən çox təşkil edir. Avropa Birliyi ölkələrində işçi qüvvəsinin 38%-dən çoxu klasterlərdə çalışırlar.

Məhz kooperasiya inkişaf etdirilmiş ölkələrdə rəqabətqabiliyyətlilik bir qayda olaraq, yüksək səviyyədə olur. Heç də təsadüfi deyildir ki, sənayeləri bütövlükdə klasterləşmə ilə əhatə olunmuş Finlandiya, Danimarka, Norveç, İsveç iqtisadiyyatı rəqabətqabiliyyətliliyə görə dünyada öncül mövqedədirlər, Almaniya və Fransanın da bir çox sənaye sahələrində klasterləşmə geniş yayılmışdır.

Cənub-şərqi Asiyada və Çində, Sinqapurda, Yaponiyada da klasterlərin formalaşdırılması prosesi sürətlənməkdədir. Məsələn, Çində 30 min şirkəti, 3,5 milyon işçini özündə birləşdirən, ildə 200 milyard dollarlıq məhsul istehsal edən 60 xüsusi klaster-zonalar mövcuddur.

Onu da qeyd etmək lazımdır ayrı-ayrı sahə və şirkətlərin rəqabətqabiliyyətliliyini və onların gəlirliyini artıran maraqların lobbiləşməsi yolu ilə "əldə olunan" inkişafdan fərqli olaraq, klasterləşmə ölkənin və regionların inkişafına dövlətin, Yerli hakimiyyətin, biznes təmsilçilərinin səmərəli qarşılıqlı əlaqələrini və məqsəd birliyini təmin etməklə mövcud maliyyə, təbii, innovativ, iş qüvvəsi resurslarından səmərəli istifadəyə, kiçik və orta sahibkarlığın, ailə təsərrüfatlarının inkişafına zəmin yaradır.

Ölkəmizdə və onun regionlarında müxtəlif iqtisadi səviyyə və sahələr arasında istehsal kooperasiyasının gücləndirilməsini təmin etməyə, klasterləşmənin geniş yayılmasına istiqamət verməyə imkan yaradan yeni bir Yol Xəritəsinin hazırlanması üzrərində də düşünməyə dəyər.

Yol Xəritəsində haqlı olaraq, şəffaflıq və hesabatlılığın yüksək səviyyədə qurulması iqtisadi siyasətin və islahatların effektivliyinin yüksəldilməsinin mühüm amili kimi dəyərləndirilir.

Heç də təsadüfi deyildir ki, Azərbaycanda biznes mühitinin institusional əsaslarının gücləndirilməsi üçün Yol Xəritəsində azad rəqabət mexanizminin inkişaf etdirilməsi, dövlət-biznes münasibətlərində insan amilinin rolunun azaldılması ilə bərabər səmərəlilik, hesabatlılıq və şəffaflığın artırılması əsas istiqamət kimi qeyd edilmişdir.

Eyni zamanda dövlət vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması istiqamətində fəaliyyətinin davam etdirilməsi zərurəti Yol Xəritəsində təsbit olunmuşdur. Şəffaflıq və hesabatlılığın investisiyaların cəlb edilməsində və onların idarə edilməsində rolu danılmazdır.

Beynəlxalq təcrübədə sübut olunmuşdur ki, iqtisadiyyatda, o cümlədən maliyyə bazarlarında şəffaflığın artması nəticəsində daha çox xarici investor cəlb edilməsi mümkün olur və əksinə şəffaflıq lazımi səviyyədə olmadıqda xarici investisiya da daxil olmaqla investisiya cəlbediciliyi nəzərəçarpacaq dərəcədə zəifləyir.

Mühasibat hesablılığının və auditin investorların maraqlarını müdafiə etməmələrinə, şəffaflığın pozulmasına bariz nümunə kimi ad çıxarmış ENRON hadisəsi investorların etimadlarının azalmasına və bunun da nəticəsində ABŞ iqtisadiyyatına qoyulan investisiyaların 300 mlrd. dollardan 30 mlrd. dollara düşməsinə, yəni 10 dəfə azalmasına gətirib çıxarmışdır.

Daxili və xarici investisiyaların cəlb edilməsində şəffaflıqla birbaşa əlaqəsi olan maliyyə bazarlarına çıxışın yaxşılaşdırılması da mühüm bir vəzifə kimi öz təxirəsalınmaz həllini gözləməkdədir. Yol Xəritəsində verilmiş təhlil materialları göstərir ki, özəl sektora daxili kredit göstəricisinə görə Azərbaycan Qərbi Avropa ölkələrindən; Türkiyə və Rusiyadan müvafiq olaraq 5,4; 3,7; 3,0 dəfə, səhm əməliyyatlarının həcminə görə isə 67,0; 50,0; 12,0 dəfə geri qalır.

Yol Xəritəsində iqtisadi inkişafın risk amillərinin düzgün və vaxtında aşkarlanıb qiymətləndirilməsinə, habelə onların təsirinin yumşaldılması yollarına xüsusi diqqət yetirilmişdir. Bu mənada, həqiqətən də, riskəsaslı nəzarət modelinin tətbiqi nəzarətin daha effektiv və mütərəqqi forması kimi mühüm rola malikdir. Başqa sözlə, ənənəvi nəzarət metodlarından fərqli olaraq, ən çox risk ehtimalı olan sahələrə daha böyük diqqət yetirilməsi tələb olunur. Mövcud nəzarət sistemi hadisələri nəinki qabaqlaya, yarana biləcək nöqsan və çatışmazlıqları vaxtında aşkarlamağa imkan vermir, həm də artıq buraxılmış nöqsanların hamısını və ya əsaslarını belə aşkara çıxarmır. Ona görə də hər bir sahədə risklərin strukturunun tədqiqinə və onlara təsir mexanizminə malik mütərəqqi nəzarət metodlarının, o cümlədən riskəsaslı nəzarətin işlənib həyata keçirilməsi çox vacibdir.

Yol Xəritəsində göstərildiyi kimi, yaxın dövrlərdə riskəsaslı nəzarətin həyata keçirilməsi üzrə daxili prosedurlar hazırlanacaq, hesabatvermə formaları və biznes prosesləri müəyyən ediləcəkdir.

Yol Xəritəsində həlli vacib sayılan digər mühüm bir məqam korporativ idarəetmə və qiymətli kağızlar bazarının fəaliyyəti ilə əlaqədardır. Belə ki, aparılmış təhlillər göstərir ki, açıq səhmdar cəmiyyətlərinin korporativ idarəetmə standartlarının zəif inkişaf etməsi, şəffaflığın aşağı olması kapitalın qiymətli kağızlar bazarı vasitəsilə cəlb edilməsini məhdudlaşdırmışdır. Elə ona görə də Yol Xəritəsinin əsas strateji hədəfləri sırasında maliyyə xidmətlərində şəffaflığın və səmərəliliyin artırılması üçün infrastrukturun təkmilləşdirilməsi təsbit olunmuşdur. Bunun da nəticəsində ölkədə fəaliyyət göstərən iri şirkətlərin əhəmiyyətli hissəsi listinqə daxil olacaq, yerli və xarici investorlar bu şirkətlərin emissiya etdiyi qiymətli kağızlarla aktiv ticarət əməliyyatları aparılmasında inamlı olacaqlar. Şəfafflığın artması və texniki infrastrukturun təkmilləşməsi nəticəsində əməliyyatların aparılması asanlaşacaqdır. Şəffaf mühit investorlara riskləri və gözlənilən gəlirləri daha yaxşı qiymətləndirmək və əsaslandırılmış qərarlar vermək imkanı yaradacaqdır.

Yaxşı məlumdur ki, hər bir investorun istəyi keyfiyyətli investisiya portfeli yaratmaq, riskləri azaltmaq və gəlir əldə etməkdir ki, bunlar da portfelə yığılan qiymətli kağızların etibarlığından birbaşa asılıdır. Bu sahədə investisiya auditinin, o cümlədən investisiya konsaltinqinin üzərinə çox mühüm vəzifələr düşür.

Aparılan təhlillər bir daha sübut edir ki, iqtisadiyyatımızda mövcud olan problemlərin böyük bir qismi hesabatlılıq və şəffaflıqda olan çatışmazlıqlara bağlıdır. Bu baxımdan, çox önəmlidir ki, 2020-ci ilədək Azərbaycanın maliyyə sektorunun inkişafı üzrə strateji baxışda hesabatlılıqda şəffaflığın artırılması zərurəti konkret olaraq göstərilmişdir.

Hal-hazırda isə təəssüf ki, korporativ rəhbərliyin şəffaf hesabatlığa münasibəti "könüllülük" prinsipinə əsaslanır ki, bu da, öz növbəsində, qeyri-qanuni və hesabatlılıqdan kənar fəaliyyətə rəvac verməklə iqtisadi inkişafa bir çox istiqamətdə mənfi təsir göstərir.

Fikrimizcə, bu sahədə vəziyyətin yaxşılaşdırılması beynəlxalq təcrübə əsasında müvafiq qanunvericilik aktlarında zəruri dəyişikliklərin aparılmasını tələb edir.

Son dövrlərdə ciddi narahatlıq doğuran milli valyutanın devalvasiyası baxımından Yol Xəritəsində qeyd olunmuş belə bir fikir də müstəsna əhəmiyyət kəsb edir ki, müasir iqtisadiyyatın daha çox davranış iqtisadiyyatına meyil etməsi, o cümlədən maliyyə-bank xidmətləri istehlakçılarının informasiyaya çıxış imkanlarının genişlənməsi diqqətin pul siyasətinin şəffaflığı və hesabatlığı üzərində fokuslaşmasını labüd edir. İdarəolunmada şəfafflığı artırmaq son illərdə həyata keçirilən islahatlarda əvvəllər də vurğulanmışdır. Bu istiqamətdə bir sıra konkret müddəalar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 sentyabr tarixli "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamında əks olunmuşdur.

Fikrimizcə, göstərilən qurumların istehsalat və xidmət sahələrinin xüsusiyyətləri nəzərə alınmaqla fəaliyyət istiqamətləri üzrə bütün makroiqtisadi və statistik, habelə illik və perspektiv plan tapşırıqlarının və onların yerinə yetirilməsinə dair natural və pul ifadəsində göstəriciləri daxil edilmiş illik hesabatlarının Nazirlər Kabineti tərəfindən öncədən bəyənilmiş formada tərtib olunması, Nazirlər Kabinetinə təqdim edilməsi və bu prosedurların qanunvericiliklə təsbit olunması şəffaflığın artırılması baxımından məqsədəuyğun olardı.

Yol Xəritəsində bu fikirlər daha da dərinləşdirilmiş və belə bir əhəmiyyətli müddəa da əks olunmuşdur ki, bu müəssisələrin maliyyə hesabatları mərhələli şəkildə beynəlxalq standartlar tətbiq edilməklə təkmilləşdiriləcəkdir.

Ölkəmizdə həyata keçiriləcək və iqtisadi inkişafa xidmət edəcək tədbirlərdən biri hesab edilən özəlləşdirmə zamanı da şəffaf maliyyə hesabatları üzrə tələblərin müəyyən edilməsi mövcud Strateji Yol Xəritəsində əlavə olaraq nəzərə alınacaqdır.

Ölkəmizin iqtisadi imkanları üzrə açıqlanan məlumatların əhatəlilik səviyyəsinin və keyfiyyətinin artırılması, məlumatların açıqlanması üzrə şəffaflığın artırılması daha dəqiq və məlumat əsaslı qərarların verilməsi imkanı yaratmaqla bütün bazar iştirakçılarının maraqlarına xidmət etdiyi nəzərə alınaraq, Yol Xəritəsində bu sahəyə xüsusi diqqət ayrılmışdır.

Bu mənada əlamətdardır ki, öz əhatəliyi və kompleksliyi ilə fərqlənən Yol Xəritəsində tamamilə haqlı olaraq göstərilir ki, daha səmərəli qərar verilməsi sahəsində həyata keçiriləcək tədbirlərə statistika infrastrukturunun gücləndirilməsi də daxildir. İnkişafın, iqtisadi-maliyyə və sosial həyatda baş verən dəyişiklikləri əks etdirib müəyyənləşdirən statistikanın təkmilləşdirilməsi problemi ölkə Prezidenti İlham Əliyevin daim diqqət yetirdiyi məsələlərdəndir. Prezidentin qeyd etdiyi kimi: "Biznes, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadi, maliyyə sektorlarının, vergi, gömrük orqanlarının tam şəffaflaşması, vergi bazasının genişləndirilməsi, uçotun, statistikanın düzgün aparılması- bax, bütün bunlar çox vacib olan məsələlərdir... Bizim statistikamız da aparıcı ölkələrin statistikasına xas olan bütün əlamətləri özündə ehtiva etməlidir. Çünki əsas budur, məlumatdır. Biz dəqiq bilməliyik, harada nə işlər görülür, hansı məhsullar istehsal olunur. Əgər belə olmasa, gələcək fəaliyyətimizi planlaşdırmaq çətin olacaqdır" [5].

Müəssisələr, menecerlər, bazar infrastrukturu iştirakçıları üçün statistik məhsulların təqdimi də mühüm əhəmiyyət kəsb edir.

Bu işdə statistika ilə yanaşı, müstəqil auditin də əhəmiyyəti və məsuliyyəti böyükdür. İqtisadi subyektlərin əksəriyyətinin hesabatlarının auditorlar tərəfindən təsdiqləndiyi tələb olunan

bir şəraitdə maliyyə-iqtisadi göstəricilərinin düzgünlüyünə statistikadan çox audit məsuliyyət daşıyır. Başqa sözlə, bazar iqtisadiyyatı şəraitində statistik göstəricilərin keyfiyyəti və düzgünlüyü auditorun iqtisadi inkişafda rolunu bir daha təsdiqləyir və auditin keyfiyyətinə tələbləri qat-qat artırır.

Yol Xəritəsində konsolidasiya edilmiş prudensial nəzarət və hesabatlılıq sisteminin olmaması ümumi risk profilinin qiymətləndirilməsi zamanı çətinliklərin yaranması səbəblərindən biri kimi dəyərləndirilir.

Prudensial nəzarət əslində daha çox tənzimlənmə funksiyasını yerinə yetirməklə limit və məhdudiyyətlər sisteminin, habelə məqbul risk səviyyəsini nəzarətdə saxlayır və investorların, əmanətçilərin, səhmdarların və digər maraqlı tərəflərin mənafeyini qoruyur. Nəzarətin bu mütərəqqi forması artıq yol verilmiş nöqsan və pozuntuların aşkarlanmasından da çox, belə neqativ halların əvvəlcədən yaranma səbəblərinin aradan qaldırılmasını əhatə edir.

Qeyri-neft sahələrində rəqabətqabiliyyətliliyin gücləndirilməsinin mühüm şərtlərindən biri olan kapitalın və istehsal güclərinin təmərküzləşməsi, habelə istehsal kooperasiyasının genişləndirilməsi kimi proseslər ölkə iqtisadiyyatının bir çox sektorlarında konsolidə hesabatlığın və prudensial nəzarətin tətbiqini iqtisadi səmərəlilik baxımından daha da aktual edir.

Bu məqsədlə, yəqin ki, konsolidasiya edilmiş prudensial nəzarət mexanizminin yaradılması üçün Yol Xəritəsi hazırlanacaq və tədbirlərin icrasına başlanacaqdır.

Yol Xəritəsində öz əksini tapmış və çox böyük önəm kəsb edən fikirlərdən biri də budur ki, məhkəmə qərarlarının standartlaşması və icra prosesinin sürətləndirilməsi maliyyə sektorunda şəffaflıq və səmərəliliyin yüksəldilməsinin təkanverici amilidir.

Fikrimizcə, məhz bu amillərin olmaması ona gətirib çıxarmışdır ki, qanunvericiliyə görə məcburi auditdən keçməli olan təsərrüfat subyektlərinin ölkə qanunvericiliyinin pozulmasına hələ 2011-ci ilin fevral ayında ölkə prezidentinin təqdimatı əsasında qəbul edilmiş Azərbaycan Respublikası Mülki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin və bir neçə Dövlət Proqramlarında, Milli fəaliyyət Planında nəzərdə tutulmuş müddəalar tətbiqdən kənarda qalmamışdır.

Unutmaq olmaz ki, Yol Xəritəsində də göstərildiyi kimi, şəffaflığın təmin edilməsi investorların bazarda iştirakını şərtləndirən mühüm amildir.

Xatırlatmaq istərdim ki, hələ 2003-cü il 24 noyabr tarixində imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanda cənab İlham Əliyev ölkənin sosial-iqtisadi problemlərinin həlli üçün ayrılan vəsaitin şəffaflığının qorunmasını, müəssisələrdə maliyyə intizamının möhkəmləndirilməsini və bu sahələrdə mövcud olan nöqsanların aradan qaldırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdu.

Şəffaflığın aşağı olmasının, iqtisadi cinayətkarlığın və korrupsiyanın iqtisadi təhlükəsinə dair rəqəmlərə müraciət edək. Ötən əsrin 90-cı illərində Amerika iqtisadçısı Paolo Mauro tərəfindən işlənib hazırlanmış model əsasında aparılmış hesablamalar göstərir ki, korrupsiya indeksinin 2,4 bal artması ölkənin iqtisadi inkişaf tempini 0,5 faiz azaldır (aşağı salır). Əksinə korrupsiyanın 1 bal azaldılması ÜDM-in adambaşına düşən məbləğinin ildə təqribən 4600 ABŞ dolları artması ilə müşahidə olunur. Digər Amerika iqtisadçısı Şan-Çin Vayın hesablamalarına görə, ölkədə korrupsiya indeksinin bir bal kimi yüksəlməsi xarici investisiyaların 0,9 faiz azalması ilə müşahidə olunur.

Korrupsiyadan törəyən haqsız rəqabət amili də real iqtisadiyyatın inkişafına ciddi mane olur. Məhz bunun nəticəsində sahibkarlıq fəaliyyətinə əsassız müdaxilə və maneə halları mümkün olur, istehlakçıların hüquqları pozulur.

Rusiyada aparılan hesablamalara görə, “otkat”lar ucbatından bu ölkədə ÜDM-in 20 faizi “itir”.

Şəffaflığın olmaması dövlət vəsaitlərindən istifadənin səmərəliliyini də nəzərəçarpacaq dərəcədə aşağı salır.

Beynəlxalq qurumların araşdırmaları daha maraqlı asılılığı da üzə çıxarmışdır. 132 ölkənin timsalında korrupsiya səviyyəsi ilə onun rəqabətqabiliyyətliliyi arasında qarşılıqlı əlaqənin olduğu təsdiqlənmişdir. Belə ki, dünyada elə bir ölkə yoxdur ki, eyni zamanda həm yüksək korrupsiya səviyyəsinə, həm də yüksək rəqabətqabiliyyətliliyə malik olsun. Eyni zamanda az korrupsiyaya uğramış və rəqabətqabiliyyətliliyi aşağı olan ölkəyə də rast gəlinməmişdir. Hesablaşmalara görə, korrupsiyanın səviyyəsi ilə rəqabətqabiliyyətlilik arasında qarşılıqlı əlaqə (korrelyasiya) əmsalı 0,87 təşkil edir ki, bu da, öz növbəsində, belə əlaqənin çox güclü olduğuna dəlalət edir. Başqa sözlə, korrupsiya rəqabətqabiliyyətliliyi (xüsusən də müəssisələr səviyyəsində) boğur və iqtisadi inkişafı onun səmt küləyindən məhrum edir. Təsadüfi deyildir ki, korrupsiya bütün dünyada iqtisadiyyatın effektivliyinə təsir edən əsas amillərdən biri kimi qəbul olunur. Əksinə korrupsiyanın azaldılması rəqabətqabiliyyətliliyi artırır, kiçik, orta və iri biznesi inkişaf etdirir, inflyasiya səviyyəsini aşağı salır, yoxsulluğu azaldır, xalqın güzəranını yüksəldir ki, bu da yalnız iqtisadiyyatın səmərəliliyinin yüksək olması şəraitində mümkündür.

Bir sıra ölkələrin təcrübəsi göstərir ki, xarici iqtisadi əməkdaşlığa dair ölkələrarası Yol Xəritələrinin hazırlanıb həyata keçirilməsi iqtisadi inkişafın amillərindən biri kimi mühüm əhəmiyyət kəsb edir.

Belə yanaşmanın müsbət nəticələri özünü, ilk növbədə, nəzərdə tutulmuş proqram və tədbirlərə çevik nəzarətin təşkilində, iqtisadi-ticarət üzrə əməkdaşlıqla investisiya üzrə əməkdaşlığın üzvi əlaqələndirilməsində, qlobal problemlə birgə baxışların formalaşmasında, qabaqcıl təcrübə, informasiya və texnologiya mübadiləsində, müştərək müəssisələrin, məhsul və xidmət növlərinin yaradılmasında, logistik və nəqliyyat xətlərinin qurulmasında və səmərəli istifadəsində, innovasiya modernləşdirmə, intellektual mülkiyyətlərin yaradılmasında, idarəetmə və kommersiyalaşdırma sahəsində əməkdaşlığın möhkəmləndirilməsində, insan resursları sahəsində birgə fəaliyyətin inkişafında, turizmin genişlənməsində, kiçik və orta biznesin dəstəklənməsində, ticarət və investisiyaların stimullaşdırılmasında, şəffaflıq və informasiya-reklam təminatında göstərə bilər.

Fikrimizcə, yuxarıda göstərilənlərdən əlavə, ən yaxın vaxtlarda “Manatın kursunun stabilləşdirilməsi”, “Kapital axınının qarşısının alınması və deofşorizasiya”, “Xarici investisiyaların cəlbi”, “İqtisadiyyatın dollardan azad edilməsi”, “Kooperizasiya iştirakçılarının maraqlarının uzlaşdırılması və klasterləşmə”, “Qiymətlərin stabilləşdirilməsi”nə dair Yol Xəritələri işlənib hazırlanmalıdır.

Strateji idarəetmə sisteminə dair yeni konsepsiyasının yaradılması da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözlərini xatırlatmaq istərdim: “Azərbaycanda görülən işlər dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində olmalıdır. Biz o səviyyəyə qalxmalıyıq. Biz ona yaxınlaşmışıq, bir çox hallarda lap yaxınlaşmışıq. Amma hələ böyük işlər görülməlidir. Ölkəmizdə bütün işlər – iqtisadiyyat, sosial siyasət və bütün başqa məsələlər müasir səviyyədə olmalıdır. İnsanlar rahat yaşamalıdır, sosial ədalət prinsipləri tam şəkildə bərqərar olmalıdır. Nöqsanlarla çox ciddi mübarizə aparılmalıdır və aparılır. Bu sahədəki fəaliyyətimizi daha da gücləndirməliyik” [6].

## Nəticə

Azərbaycanın Yol Xəritəsində göstərilən mexanizmlərin işlənib hazırlanması və tətbiqi yeni qlobal reallıqda Azərbaycan iqtisadiyyatının düzgün istiqamətləndirilməsi və inkişafının sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və ölkə prezidentinin tələblərinə uyğun gələcək inkişafa möhkəm zəmin yaradacaqdır. Təsdiq olunmuş Yol Xəritəsinin daha müvəffəqiyyətlə həyata keçirilməsi üçün bir sıra yol xəritələrinin, o cümlədən ölkəmizdə və onun regionlarında iqtisadi səviyyə və sahələr arasında istehsal kooperasiyalarının gücləndirilməsini təmin etməyə, klasterləşmənin geniş yayılmasına imkan yaradacaq yeni yol xəritələrinin, həmçinin "Manatın kursunun" "Kapital axınının qarşısının alınması və deofşorizasiya", "Xarici investisiyaların cəlbi", "İqtisadiyyatın dollardan azad edilməsi", "Kooperizasiya iştirakçılarının maraqlarının uzlaşdırılması və klasterləşmə", "Qiymətlərin stabilləşdirilməsi"nə dair Yol Xəritələrinin hazırlanmasına ehtiyac vardır.


**Vahid Novruzov**

**Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi və inkişaf**

**Xülasə**

Məqalədə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndən irəli gələn vəzifələr geniş təhlil edilmişdir. Yol Xəritəsində nəzərdə tutulmuş şəffaflıq və hesabatlılıq probleminin həlli istiqamətində qarşıya çıxan məsələlərə münasibət bildirilmiş və onların həlli yolları haqqında təkliflər verilmişdir. Yol Xəritəsində nəzərdə tutulmuş vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əlavə yol xəritələrinin qəbuluna ehtiyac olduğu göstərilmişdir.



**Вахид Новрузов**

**Стратегическая Дорожная Карта экономики Азербайджана и развитие**

**Резюме**

В статье широко проанализированы обязательства, вытекающие из "Стратегической Дорожной Карты по перспективе национальной экономики Азербайджанской Республики". Выражено отношение к возникающим вопросам решения проблем прозрачности и отчетности, предусмотренных в Дорожной Карте и даны предложения о путях их решения. Показана необходимость в принятии дополнительных дорожных карт для успешной реализации обязательств, предусмотренных в Дорожной Карте.



**Vahid Novruzov**

**Strategic Road Map of Azerbaijan's economy and development**

**Summary**

The article widely analyses obligations under "Strategic Road Map on the perspectives of national economy of the Republic of Azerbaijan". The attitude to the emerging issues of solution of transparency and reporting problems envisaged in the Road Map and proposal on ways of their solution are provided here. The necessity of adoption of additional road maps for successful implementation of obligations stipulated in the road map is shown here.


## Ədəbiyyat


1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16 mart 2016-cı il.

2. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.
3. “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 5 sentyabr 2016-cı il.
4. “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Azərbaycan Prezidentinin Fərmanı. 24 noyabr 2003-cü il.
5. http://www.president.az/articles/17585 “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin yekun nitqi. 26 yanvar 2016-cı il.
6. http://president.az/articles/1543?locale=az Prezident İlham Əliyevin Tovuz rayonu ictimaiyyət nümayəndələri ilə görüşündə çıxışı. 9 fevral 2017-ci il.